# «MDB-nin mədəniyyət paytaxtları-2013» dövlətlərarası proqramının təntənəli açılışı və Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikatın təqdim edilməsi mərasimi olmuşdur

*MDB-nin üzv dövlətlərinin humanitar sahə üzrə Əməkdaşlıq Şurasının və təşkilata üzv ölkələrin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun ötən il oktyabrın 15-dən 17-dək Aşqabadda keçirilmiş birgə iclasında qəbul edilən qərara əsasən, 2013-cü ildə Qəbələ MDB-nin mədəniyyət paytaxtı elan olunmuşdur.*

İyunun 29-da Qəbələdə «MDB-nin mədəniyyət paytaxtları-2013» dövlətlərarası proqramının təntənəli açılış mərasimi olmuşdur.

Tədbir iştirakçıları əvvəlcə Qəbələ şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzmüş, əziz xatirəsini ehtiramla yad etmişlər.






Sonra yeni istifadəyə verilmiş Qəbələ Mədəniyyət Mərkəzində yaradılan şəraitlə tanışlıq olmuşdur.

Tədbirdə Azərbaycanın Rusiyadakı səfiri, MDB-nin üzv dövlətlərinin Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondunun İdarə Heyətinin sədri Polad Bülbüloğlu qonaqları salamlamış, mərasimdə 10-dan çox ölkənin nüfuzlu rəsmi nümayəndəsinin iştirak etdiyini demişdir.



Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi münasibətilə təbriklərini çatdıran səfir Humanitar Əməkdaşlıq üzrə Dövlətlərarası Fondun yaranması və fəaliyyəti barədə məlumat vermişdir. Bildirmişdir ki, Fond MDB məkanında humanitar əməkdaşlığın genişlənməsinə təkan verir. Coğrafi cəhətdən MDB ölkələri xalqlarının uzun illər boyu bir yerdə yaşadığı üçün mədəniyyətlərimiz arasında fəal dialoqun olduğunu qeyd edən Polad Bülbüloğlu, Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsindən danışmışdır.

Qəbələnin beynəlxalq əhəmiyyətli mədəni tədbirlərə ev sahibliyi etdiyini deyən diplomat, Azərbaycanın bu qədim şəhərinin beynəlxalq klassik musiqi mədəniyyəti mərkəzinə çevrildiyini diqqətə çatdırmışdır. Bildirmişdir ki, bütün bu tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxt Bakı ilə yanaşı, Azərbaycanın regionlarının da sürətlə inkişaf etdiyini bir daha təsdiqləyir. Səfir Azərbaycan dövlətinin başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın ölkədə mədəniyyət və incəsənət sahələrinin inkişafına göstərdiyi diqqətdən danışmışdır.

Polad Bülbüloğlu ümummilli lider Heydər Əliyevin MDB ölkələrinin xalqları arasındakı əməkdaşlığın inkişafında əvəzolunmaz rolunu da qeyd etmişdir.

Tacikistanın mədəniyyət nazirinin birinci müavini Mirəli Dostiyev, Qırğız Respublikasının Prezidenti Aparatının eksperti Zayırbek Erqeşov, Moldovanın Mədəniyyət Nazirliyinin «Moldova-Konsert» Milli-Mədəni Mərkəzinin sədri Valentin Qoqa tədbirin yüksək səviyyədə təşkilatçılığına görə minnətdarlıqlarını bildirmişlər. Azərbaycanda beynəlxalq mədəni tədbirlərin yüksək səviyyədə keçirildiyini deyən qonaqlar Bakının sürətlə inkişaf etdiyini və bu inkişafın onlarda məmnunluq hissi doğurduğunu, eyni zamanda Qəbələdə olduqları müddətdə vaxtlarının çox səmərəli və maraqlı keçdiyini vurğulamışlar.

Qəbələnin MDB-nin mədəniyyət paytaxtı seçilməsi münasibətilə Azərbaycan xalqını səmimi qəlbdən təbrik edən Belarusun Azərbaycandakı səfiri Nikolay Pastkeviç və Rusiyanın Mədəniyyət Nazirliyinin MDB ölkələri ilə iş bölməsinin rəhbəri Anton Nazarov Qəbələdə yüksək qonaqpərvərliklə qarşılaşdıqlarını məmnunluqla söyləmişlər. Onlar Azərbaycanda həyata keçirilən məqsədyönlü regional siyasətin çox uğurlu olduğunu demişlər.

Sonra Qəbələnin 2013-cü ildə MDB-nin mədəniyyət paytaxtı seçilməsi ilə bağlı sertifikatın təqdim edilməsi mərasimi olmuşdur.

**Fotolar S. Umuyevindir.**

**(Ardı 3-cü səhifədə).**